

■ Mirdamət ƏZİZ

## ÖVLAD ÇİYNİ ATA ƏLİ ÜÇÜNDÜR

Qürurlu insan da heç əyilərmi,
Ölüncə şax qaldı atamın qəddi,
İsti evimizi isti kürk kimi
Elə bil əynindən çıxarıb getdi.

Sığmadı dünyanın dərd miqyasına,
Həyat ürəyini odlara saldı,
Özü köçib getdi haqq dünyasına,
Əlləri elə bil çiynimdə qaldı.

Savabım bir oldu, günahım iki,
Çırpındım həyatın düyünlərində,
O mələk dediyin mələk deyil ki,
Atamın əlidir çiyinlərimdə.

Qara quyu kimi dərd məni udur,
Müşküllər kəsilir ömrümə qənim,
Bəzən yıxılıram, çiynimdən tutub
Atamın əlləri qaldırır məni.

Qıymır alovlarda qovrulam, bişəm,
Mənə ağır iş də çox yüngül gəlir:
Dayanır çiynimlə çiynimə düşən
Yükün arasında atamın əli.

Başımın üstündə ruhu keşişdə,
Çəkdiyi zülmlər eynimdən getmir,
Ayağının izi evdən-eşikdən,
Əlinin yeri də çiynimdən getmir.

Yaxın gəl, ay oğul, gendə dayanma,
Yaman kövrəlmişəm qəribə gündür,
Hərdən dost-tanış da əl qoyar, amma
Övlad çiyni ata əli üçündür.

## SÖZ MƏNİ TUTANDA ŞAİR OLURAM

Göylərin min cürə möcüzəsi var,
Sən demə, bu yağış havası imiş,
Daraşdı köksümə söz-qarışqalar,
Ürəyim qarışqa yuvası imiş.

Top kimi atılıb-tutulsa da söz,
Bağrımın başını qamçılar mənim,
Nə qədər miyanə atılsa da söz,
Yenə ürəyimə sancılar mənim.

Ürəyim hökmünü deyir, yazıram,
Bulud tək boşalır, bir də doluram,
Mən sözü tutanda şer yazıram,
Söz məni tutanda şair oluram.

Yazıb ürəyimi boşaldıram mən,
Tərsinə verirlər yozmanı, Allah,
Sözə həyat verib yaşadıram mən,
Di gəl ki, öldürür söz məni, Allah.

Zülmlər, sitəmlər gələndə susur,
Ürəyim gözümün yaşında çimir,
Ürəyim- canımın "qara qutusu",
Dilləndir, danışsın nə çəkdiyimi.

## ÖMRÜM UZANDIQCA DİLİM QISALIR

Fikirdən-xəyaldan gəlirəm cana,
Alanda əlimə əmək haqqımı,
Geyinmək bir yana, gəzmək bir yana,
O ki heç ödəmir yemək haqqımı.

Rəqabət aparır cib ilə ürək,
Burulub heç yana axa bilmirəm,
Qazanda ət bişmir, təndirdə çörək,
İtin də üzünə baxa bilmirəm.

Bilmirəm, getdiyim səkimi, yolmu,
Ümid aparıram, qəm gətirirəm,
Çörək almaq olmur, un almaq olmur,
Evə saçlarımda dən gətirirəm.

Mən niyə qınayım evdəkiləri,
Ömrüm uzandıqca dilim qısalır,
Amansız ehtiyac illərdən bəri
Əlimi cibimdən didərgin salıb.

Çəkənlər bilir ki, kef-damaq deyil,
Vallah, addımbaşı sarsılmaqdı bu,
Sürünə-sürünə yaşamaq deyil,
Oynaya-oynaya asılmaqdı bu...

## ATLILAR, ATLARI CİDARLAMAYIN!

Çapanda dördnala qaçırsa - atdı,
Dırnağından alov saçırsa - atdı,
Düşmənin üstünə uçursa - atdı,
Atdı ruhumuzun elə bir tayı,
Atlılar, atları cidarlamayın!

Ruhun qanadı var, qanadın ruhu,
Yatıb içinizdə, oyadın ruhu.
Sizi qarğımazmı Qıratın ruhu,
Nəyə əminsiniz, kimə arxayın,
Atlılar, atları cidarlamayın!

Göydən başımıza daş tökər Allah,
Qırılıb gedərik, qəbir yetişməz,
Cidarlı atların belində, vallah,
Koroğlu yetişməz, Nəbi yetişməz,
Atlılar, atları cidarlamayın!

Neçə yurd dağıldı, neçə düşərgə,
Qeyrət aləmində fərqə bax, fərqə,
Atlar qərbə çəkir, atlılar şərqə,
Nədən silkələmir sizi harayım,
Atlılar, atları cidarlamayın!

Orda Xaçın qalıb, Həkəri qalıb,
Fırlanmır, qeyrətin təkəri qalıb,
Hələ ki, dizində təpəri qalıb-
Dağlara dağıdın, düzlərə yayın,
Atlılar, atları cidarlamayın!

Doğmaya, tanışa, bilişə dönsün,
Qəhqəhəyə dönsün, gülüşə dönsün,
Günəş işığında gümüşə dönsün,
Qızıldan tökülsün nurunda ayın,
Atlılar, atları cidarlamayın!

Göydə kişnərtilər tüstüsü qalsın,
Hər köhlən tərkinə bir günəş alsın,
Üfüqdən üfüqə cığırlar salsın,
Uçsun üzərindən dərənin, çayın,
Atlılar, atları cidarlamayın!

## İNSANIN GÜNƏŞİ

Yonmuşam evimdə qəm heykəlini,
Həsrətdən-hicrandan gözüm ac olmur,
Məndən inciyibdi anam gəlini,
Bizdə süpürgəyə ehtiyac olmur.

Bilməyib qəlbinə toxunmuşam mən,
Söz ağızdan çıxıb hara düşürmüş,
Sən demə, dünyada quş dimdiyindən,
İnsan da dilindən dara düşürmüş.

Qəlbindən güc almır, dili tutulur,
Kədər damcılayır büsatımıza,
Nəfəsi soyuyur, üzü tutulur,
Səsindən qar yağır ovqatımıza.

Dillənmir, eləcə lal-dinməz qalır,
Cavabı üzdəydi, itib dərində,
Qohum-əqrabanı didərgin salır,
Qaçırdır dadını xörəklərin də.

Elə çətindir ki, dərdini bölmək,
İradlar sağımı-solumu kəsir,
Görürəm, onunla söz-sözə gəlmək,
Üz-üzə gəlməyin yolunu kəsir.

Evimiz o qədər soyuyubdu ki,
Bir də isinməyi ağlıma batmır,
Arvad götürməyən salam-əleyki
Allah da götürsə, canıma yatmır.

Çəkdiyim əzabı düşünmə asan,
Mən ondan alıram ucalığımı,
Ona gəncliyimi bağışlamasam,
O mənə çox görər qocalığımı.